COP29
Baku
Azerbaijan

# MÜVƏQQƏTİ GƏTİRİLMƏ BƏYANNAMƏSİ ÜZRƏ TƏLİMAT



1. Giriş 3

2. Yeni bəyannamənin yaradılması 3

2.1 Malların bəyan edilməsi 5

2.2 Valyutanın bəyan edilməsi 7

3. Bəyannamənin təqdim edilməsi 8

4. Bəyannamənin nəzərdən keçirilməsi 9

Əlaqə 11

COP29
Baku
Azerbaijan

# 1. Giriş

Azərbaycana müvəqqəti gətirilən mallar E-customs: Elektron Gömrük Xidmətləri portalı vasitəsilə ölkəyə gəlməzdən ən azı **72 saat** əvvəl müvafiq qaydada bəyan edilməlidir:

- Azərbaycana müvəqqəti olaraq gətirilən bütün media avadanlıqları (həm COP29 Radiospektrin idarə edilməsi portalı vasitəsilə qeydiyyatdan keçirilmiş radioelektron vasitələr, həm də radiospektr ayrılması tələb olunmayan digər avadanlıqlar)
- Ümumi gömrük dəyəri **800 ABŞ dollarından** artıq olan mallar
- Valyuta (**10.000 (on min) ABŞ dolları** ekvivalentindən artıq nağd məbləğ)

Azərbaycana gəldiyiniz zaman hava limanında aşağıdakı sənədləri gömrük əməkdaşına təqdim etməlisiniz:

- Akkreditasiya təsdiqi məktubu
- COP29 Radiospektrin idarə edilməsi portalından əldə etdiyiniz QR kod (əgər radioelektron vasitə gətirirsinizsə)
- Sərnişinlər üçün sadələşdirilmiş bəyannamə (çap edilmiş surəti və ya QR kod)

**Qeyd:** Bu bəyannamə Azərbaycanı tərk edərkən də müvafiq mallar ilə birlikdə gömrük əməkdaşına təqdim edilməlidir.

# 2. Yeni bəyannamənin yaradılması

1. Yeni bəyannamə yaratmaq üçün E-customs: Elektron Gömrük Xidmətləri portalına daxil olun və **“+Yeni”** düyməsini sıxın.



**“Mənə məxsus”** sahəsini seçin və vətəndaşlıq, pasport nömrəsi (və ya FİN) və doğum tarixini daxil etdikdən sonra **“İrəli”** düyməsini sıxın.

**Qeyd:** Bəyannaməni səyahət üçün istifadə edəcəyiniz eyni sənədlə **(pasport və ya şəxsiyyət vəsiqəsi)** tərtib edin. **FİN kodu** Azərbaycana şəxsiyyət vəsiqəsi ilə səyahət hüququ olan sərnişinlər daxil edə bilər.




Soyad, ad və mobil nömrənizi daxil edin və **“İrəli”** düyməsini sıxın.

**Qeyd:** Telefon nömrəsini düzgün daxil etdiyinizdən əmin olun. Ehtiyac olduğu təqdirdə qeyd olunan nömrəyə SMS məlumatlar göndəriləcək.




**“Ölkəyə giriş”** sahəsini və aşağıdakı menyudan gəldiyiniz ölkəni seçin. “**Sərhədkeçmə növü”** sahəsində **“Hava”** seçimini etdikdən sonra çatma tarixi və uçuş nömrəsini daxil edərək **“İrəli”** düyməsini sıxın.




## 2.1 Malların bəyan edilməsi

Azərbaycana gətirməyi planlaşdırdığınız malları bəyan etmək üçün **“Mallar”** bölməsindəki suala **“Bəli”** cavabını verin.




Malları həm **“Ən çox bəyan edilənlər”** bölməsindən, həm də aşağıdakı xanalardan seçə bilərsiniz.

Media avadanlıqlarını bəyan etmək üçün əsas kateqoriya xanasında **“Digər mallar”**, əsas qrup xanasında **“Media avadanlıqları”** və alt qrup xanasında xüsusi avadanlığı seçin.

Mal haqqında müvafiq məlumatları (marka, model və s.) **“Malın təsviri”** xanasına daxil edin və malın dəyərini, miqdarını və ölçü vahidini qeyd edin.

**Qeyd:** Əgər eyni maldan bir neçə ədəd bəyan edirsinizsə, o zaman **“Ümumi dəyər (USD)”** xanasına malların ümumi dəyərini daxil edin.

Bəyan etdiyiniz malları ölkəyə müvəqqəti olaraq gətirəcəyiniz üçün **“Müvəqqəti keçirilən mallar”** sahəsini seçin və malı geri qaytaracağınız tarixi qeyd edin.

**Qeyd: “Müvəqqəti keçirilən mallar”** xanasını seçdiyiniz halda, göstərilən müddət ərzində malı mütləq geri qaytarmalısınız. Bəyannamə gömrük əməkdaşı tərəfindən təsdiq edildiyi andan etibarən sərhədkeçmənizə məhdudiyyət qoyulacaq. Bəyan etdiyiniz malları geri qaytardığınız zaman gömrük əməkdaşına təqdim etməlisiniz. Müvafiq eyniləşdirilmə aparıldıqdan sonra sərhədkeçmənizə qoyulan məhdudiyyət gömrük əməkdaşı tərəfindən aradan qaldırılacaqdır.

Tələb olunan bütün məlumatları daxil etdikdən sonra **“Əlavə edin”** düyməsini sıxın.




Mal haqqında daxil etdiyiniz məlumata düzəliş etmək üçün işarəsinə və məlumatı silmək üçün işarəsinə klik edin. Əlavə mal bəyan etmək üçün isə **“Yeni mal əlavə et”** düyməsini sıxın.



## 2.2 Valyutanın bəyan edilməsi

Əgər ölkəyə 10.000 (on min) ABŞ dolları ekvivalentindən artıq nağd valyuta gətirməyi planlaşdırırsınızsa, **“Valyuta”** bölməsindəki suala **“Bəli”** cavabını verin.




Müvafiq xanalara məbləği daxil edin və **“Əlavə edin”** düyməsini sıxın.



# 3. Bəyannamənin təqdim edilməsi

Daxil etdiyiniz məlumatları nəzərdən keçirmək və ya onlara düzəliş etmək üçün **“Yeniləyin”** düyməsini sıxın.

Növbəti səhifəyə keçid etmək və bəyannaməni təqdim etmək üçün **“İrəli”** düyməsini sıxın.




Təsdiq xanasının yanında təqdim edilən məlumatı diqqətlə oxuyun və həmin xananı seçin.

Təqdim etdiyiniz bütün məlumatların düzgün olduğuna əmin olun və **“Təqdim et”** düyməsini sıxın.



Bəyannaməni təqdim etdikdən sonra bəyan etdiyiniz malın şəklini əlavə etməlisiniz. **“Fayl əlavə et”** düyməsini sıxın və malın şəklini yükləyin.

Şəkli yüklədikdən sonra Azərbaycana gəldiyiniz zaman gömrük əməkdaşına təqdim etmək üçün **bəyannaməni çap edin və ya QR kodunu yükləyin.**




# 4. Bəyannamənin nəzərdən keçirilməsi

Bəyannamənizə düzəliş etmək üçün **“Ana səhifə”**-yə keçid edin.



Pasport nömrənizi ( və ya FİN ), doğum tarixinizi və bəyannaməni təqdim edərkən qeyd etdiyiniz mobil nömrəni daxil edin.




Təqdim etdiyiniz məlumatları nəzərdən keçirmək üçün 👁 işarəsinə klik edin.



Ehtiyac olduğu təqdirdə **“Fayllara bax”** sahəsinə keçid edərək yüklədiyiniz şəkli silə və yeni şəkil yükləyə bilərsiniz.




**“Düzəliş”** sütununun altında yerləşən ••• işarəsinə klik etməklə bəyannaməni redaktə edə, silə, çap edə və ya QR kodunu yükləyə bilərsiniz.




# Əlaqə

Media ilə əlaqəli sualları mediaservices@cop29.az e-poçt ünvanına yönləndirə bilərsiniz.

COP29
Baku
Azerbaijan